# Düzgün strategiya və mütərəqqi islahatlar bəhrəsini verir

## İlham Əliyevin iqtisadi siyasət kursu yeni keyfiyyət dəyişiklikləri ilə müşahidə olunur

Pandemiya ilə mübarizədə nümunələr yaradan Azərbaycan bu ümumbəşəri bəlanın yaratdığı çətinlikləri demək olar ki, geridə qoyub. Respublikamızda bütün sahələrdə həyat öz axarına düşüb.

Artıq ikinci ildir iqtisadiyyatın bütün sferalarında qeydə alınan artımlar da bunu təsdiqləyir. Eyni zamanda iqtisadiyyatdakı artımın, ÜDM istehsalının çoxalmasının Vətən müharibəsindən dərhal sonra baş verməsi Azərbaycanın inkişaf yolunun düzgünlüyündən və dəqiq iqtisadi əsaslandırılmasından xəbər verir.

### Strateji valyuta ehtiyatları 54 milyard dolları ötüb

Xatırladaq ki, Azərbaycanda 2021-ci ildə əvvəlki illə müqayisədə 5,6 faiz çox ümumi daxili məhsul istehsal edilib. İqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 7,2 faiz artıb, sənaye müəssisələri tərəfindən isə 5,2 faiz çox məhsul istehsal olunub. Sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 20 faiz çox olub. Ötən il valyuta ehtiyatlarımızda artım 2,2 milyard dollar təşkil edib. Azərbaycanın ticarət əlaqələrinin müsbət saldosu 9,4 milyard dollar olub. "Bu göstəricilərlə hər bir ölkə öyünə bilər. Amma bizim üçün bu, təbiidir. Çünki Azərbaycan xalqı görür ki, uzunmüddətli, düzgün strategiyanın həyata keçirilməsi nəticəsində iqtisadi inkişaf göz önündədir", - deyə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində bildirmişdi.

Bu baxımdan 2021-ci il Azərbaycan üçün növbəti uğurlu mərhələ kimi tarixə düşdü. Dünyada davam edən və yeni formaları meydana çıxan müxtəlif böhranlar şəraitində Azərbaycanın ili uğurla başa vurması həyata keçirilən siyasətin məqsədyönlüyündən xəbər verir ki, bu da respublikamızda gedən düzgün iqtisadi proseslərin və islahatların məntiqi nəticəsidir.

2021-ci ilin makroiqtisadi göstəriciləri həm də iqtisadi artımın növbəti ildə də yüksək templə davam edəcəyi barədə nikbin proqnozlar irəli sürməyə imkan verirdi. Görünən odur ki, Azərbaycan iqtisadiyyatında müşahidə olunan artım tempi 2022-ci ilin ilk 5 ayında da davam edib. Həm də iqtisadi artım nəinki davamlıdır, hətta daha sürətlidir. Belə ki, bu ilin yanvar-may ayları ərzində Azərbaycan ÜDM-in həcmi 50 milyard manatı, qeyri-neft sektorunda istehsalın həcmi isə 25 milyard manatı ötüb. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ÜDM real ifadədə 7,2 faiz, qeyri-neft sektoru üzrə 11 faiz artıb. Respublikamızın strateji valyuta ehtiyatları 1 milyard ABŞ dolları artaraq, 54,2 milyard ABŞ dolları olub.

Onu da qeyd edək ki, bu ilin ilk 5 ayı ərzində dövlət büdcəsi profisiti 2 milyard manata yaxın olub və bu da planlaşdırılan profisitdən 4 dəfə çoxdur. İcmal büdcənin profisiti 4 milyard manata yaxın olub və planlaşdırılan 2 milyarda yaxın kəsirdən çoxdur. Bunu şərtləndirən bir çox amillər mövcuddur. Bunlardan biri odur ki, ilk dəfə olaraq 2022-ci ilin 5 ayı ərzində Azərbaycanın neft ixracından əldə etdiyi valyuta gəlirləri və qaz ixracından əldə etdiyi gəlirləri demək olar ki, bərabərləşib.

### Dövlət büdcəsinin gəlir və xərcləri artırılır

Bütün bunlar Azərbaycanda büdcə siyasəti ilə bağlı yeni çağırışlar formalaşdırıb. Ötən ay Zəngilanda Ağalı kəndinin sakinləri ilə görüşdə Prezident İlham Əliyev bu barədə deyib: "Mən bu gün bunu bəyan etmək istəyirəm. Biz dövlət büdcəsinə əlavələr etməliyik, çünki iqtisadi göstəricilər daha yaxşıdır. Gəlirlərimiz nəzərdə tutulandan daha çoxdur. Ona görə biz bu əlavə gəlirləri və iqtisadi imkanlarımızı səfərbər etməliyik ki, vaxt itirmədən azad edilmiş torpaqlarda daha böyük həcmdə iş görək. İndi hökumətə tapşırılıb, yəqin yaxın gələcəkdə Milli Məclis bu məsələyə baxacaq ki, biz daha çox vəsait ayıraq. Mən demişəm, iqtisadiyyatımız nə qədər güclü inkişaf edərsə, biz azad edilmiş bütün əraziləri o qədər tez bərpa edəcəyik".

Artıq Milli Məclisin komitələrinin iclasında "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə olunub. Bu gün isə layihə Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılacaq.

Qeyd edək ki, yenidən baxılmaqla dövlət büdcəsinin gəlirlərinin 2 milyard 382 milyon manat artımı nəzərdə tutulur. 2022-ci ilin dövlət büdcəsinin xərcləri 32 milyard 304 milyon manat məbləğində nəzərdə tutulur ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 2 milyard 425 milyon manat və ya 8,1 faiz çoxdur. Yenidən baxılmaqla icmal büdcənin gəlirləri 36 milyard 661 milyon manat proqnozlaşdırılır. İcmal büdcənin xərcləri isə 35 milyard 541 milyon manata çatdırılacaq.

### Xərclərin böyük hissəsi Böyük qayıdışın reallaşmasına yönəldiləcək

2022-ci ilin dövlət və icmal büdcələrinin yenidən baxılmasının əsas hədəfi artan gəlirlərin dövlət başçısının müəyyən etdiyi prioritet vəzifələrin yerinə yetirilməsi üçün əlavə maliyyə təminatının yaradılmasından ibarətdir. Büdcənin artırılan xərclərinin böyük hissəsi Qarabağda, Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinin aparılmasına və bu yerlərə Böyük qayıdışın reallaşmasına yönəldiləcək.

Azərbaycanın dövlət büdcəsi hazırda Cənubi Qafqazın ən böyük büdcəsidir. Artımlardan sonra isə dövlətimizin büdcəsi daha da böyüyəcək və təbii ki, artan gəlirlər qarşıda duran vəzifələrin daha sürətlə həyata keçirilməsinə imkan verəcək.

Ümumilikdə isə Azərbaycan iqtisadiyyatında baş verən keyfiyyət dəyişiklikləri Prezident İlham Əliyevin iqtisadi siyasət kursunun növbəti təntənəsidir. İqtisadiyyatın bütün sahələrində baş verən artımlar həm də ondan xəbər verir ki, son illərdə həyata keçirilən iqtisadi siyasət öz bəhrəsini verir. Ən mühüm reallıqlardan biri də ondan ibarətdir ki, neft və qaz ixracından gələn gəlirlər səmərəli şəkildə qeyri-neft sektorunun inkişafına yönəldilir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 23 iyun.- S.9